www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-07 (1833) 15 aprel 2026-cı il



# Dövlət İmtahan Mərkəzinin 10 illik yubileyi qeyd olunub

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli tədbirdə iştirak edib

səh.2

## Şəhid baş leytenant Cavidan Bədəlovun xatirəsi yad edilib

səh. 6

## Erkən diaqnostika autizmin idarə olunmasında əsas rol oynayır

səh. 7

## Həkimlərimiz ağır əməliyyatların öhdəsindən uğurla gəlir

səh. 7



## Dünya Azərbaycanlı Alimlər Birliyi ilə memorandum imzalamışıq

Sənəd təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığın təşkili və inkişafını nəzərdə tutur

səh. 2

## İnsan üçün ən böyük nemət sağlamlıqdır

*"Sağlam dünya - sağlam gələcək" adlı tədbir keçirilib*

səh. 2

## Stomatologiya fakültəsi TEC-in konfransı keçirilib

*Tələbələr üç dildə təqdimat bacarıqlarını nümayiş etdiriblər*

səh. 4



## Beynəlxalq əlaqələr sahəsində illik fəaliyyət müzakirəyə çıxarılıb

Rektor, professor Gəray Gəraybəyli: Hədəf auditoriyası və əməkdaşlıq coğrafiyasının genişləndirilməsi prioritetdir

səh. 3

# Dövlət İmtahan Mərkəzinin 10 illik yubileyi qeyd olunub

## Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli tədbirdə iştirak edib

**Aprelin 10-da Dövlət İmtahan Mərkəzinin 10 illik yubileyinə həsr olunmuş "Qiymətləndirmə sistemləri: etimad, şəffaflıq və innovasiya" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.**




Konfransın keçirilməsində əsas məqsəd təhsilin qiymətləndirilməsi və dövlət qulluğu sahəsində əldə olunmuş nailiyyətlər və təcrübənin paylaşılması, eyni zamanda müvafiq istiqamətlər üzrə aktual məsələlərlə bağlı müzakirələrin aparılması olub. Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan, Misir, Cənubi Afrika Respublikası və Keniyadan, eləcə də müxtəlif beynəlxalq təşkilatlardan ümumilikdə 200-dən artıq nümayəndənin qatıldığı tədbirdə Azərbaycanın ali təhsil müəssisələrinin rəhbərləri, o cümlədən Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli də iştirak edib.

Konfransı giriş sözü ilə açan Dövlət İmtahan Mərkəzi İdarə Heyətinin sədri Məleykə Abbaszadə qonaqları salamlayıb və bu 10 ilin milyonlarla vətəndaşımızın həyat yolunun ayrılmaz hissəsinə çevrilmiş bir təşkilatın inkişafında mühüm mərhələ olduğunu qeyd edib. Ancaq sədr tariximizin yalnız bu 10 ildən ibarət olmadığını, onun xeyli əvvəl – ölkədə subyektiv qərarlara deyil, biliklərə əsaslanan qiymətləndirmə sisteminin yaradılması lehinə prinsipial siyasi seçimin edildiyi andan başladığını vurğulayıb: "Hələ Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilən uzaqgörən strategiyaya əsaslanaraq, biz bu seçimi konkret institusional qərarlarla reallaşdırmışıq".

Elm və təhsil naziri Emin Əmrullayev konfransın təhsilin qiymətləndirilməsi sahəsində ən yaxşı təcrübələri bölüşmək və qarşıya çıxan ümumi problemləri müzakirə etmək üçün əlverişli platforma olacağına inandığını bildirib.

Türkiyənin Ölçmə, Seçmə və Yerləşdirmə (ÖSYM) Mərkəzinin prezidenti Bayram Əli Ərsoy yubiley tədbirində iştirak etməkdən məmnun olduğunu bildirib və bu görüşü həm də ölçmə və qiymətləndirmə sahəsində ortaq keçmişi və gələcəyi paylaşan qurumların bir araya gəlməsi kimi dəyərləndirib.

Digər çıxışçılar konfransın təhsilin qiymətləndirilməsi və dövlət qulluğu sahəsində peşəkar mübadilə vasitəsinə çevriləcəyinə və stimullaşdırıcı rol oynayacağına əminliklərini ifadə ediblər.

Konfransda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin imtahan mərkəzləri arasında təhsildə qiymətləndirmə və imtahanların keçirilməsi sahəsində əməkdaşlığın gücləndirilməsi haqqında Niyyət Protokulu da imzalanıb.

Rəsmi açılışdan sonra beynəlxalq elmi-praktik konfrans panel müzakirələrlə davam edib.

# Dünya Azərbaycanlı Alimlər Birliyi ilə memorandum imzalamışıq

**Azərbaycan Tibb Universiteti ilə Dünya Azərbaycanlı Alimlər Birliyi (DAAB) arasında rəsmi əməkdaşlığı dəstəkləyən Anlaşma Memorandumu imzalanıb.**

ATU-nun rektoru, professor Gəray Gəraybəyli və DAAB-ın sədri, professor Məsud Əfəndiyev tərəfindən imzalanan sənəd təhsil, elm və mədəniyyət sahəsində qarşılıqlı, faydalı əməkdaşlığın təşkili və inkişafını nəzərdə tutur. Bundan əlavə, memorandum birgə elmi və tədqiqat proqramları, layihə və işlərin icrasını dəstəkləyir. Eyni zamanda müxtəlif sahələr üzrə, o cümlədən elmi-tədqiqat, alim və mütəxəssislərin peşəkar inkişafı, akademik və inzibati heyətin, bakalavr, magistratura və rezidentura tələbələrinin mübadiləsi və s. kimi istiqamətləri ehtiva edir.

İmzalama mərasimində əməkdaşlığın müxtəlif aspektləri üzrə geniş fikir mübadiləsi aparılıb, növbəti mərhələlərdə ikitərəfli əlaqələrin inkişafına töhfə verə biləcək mümkün istiqamətlər nəzərdən keçirilib. Həmçinin dünyadakı azərbaycanlı tədqiqatçıları beynəlxalq elmi platformada birləşdirən DAAB-ın hədəflərinə toxunularaq, güclü potensiala malik azərbaycanlı alim-həkimlərin, xüsusən də ATU məzunlarınının bu Birliyə cəlb olunmasının vacibliyi vurğulanıb.



Qeyd edək ki, 2022-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "Əməkdar elm xadimi" fəxri adı ilə təltif edilən DAAB-ın sədri, professor Məsud Əfəndiyev həm də 1991-ci ildə Almaniya hökumətinin təsis etdiyi "Aleksandr fon Humboldt" mükafatını qazanan ilk azərbaycanlıdır. Beynəlxalq arenada elmi fəaliyyəti ilə diqqət çəkən M.Əfəndiyev 2005-ci ildə Yaponiyanın "Japan Society for the Promotion of Science - JSPS", 2007-ci ildə Danimarka hökumətinin "Otto Monsted" mükafatları ilə də təltif olunub. 2023-cü ildə isə Fields İnstitutunun ömürlük mükafatına ("The Life Achievement Award") layiq görülüb. Yaponiya, Almaniya, ABŞ, Kanada və İsveçrədə nəşr olunan 8 kitabın, 200-dən çox elmi məqalənin müəllifidir.

# Qazi Universiteti ilə əməkdaşlığımız genişlənir



**Azərbaycan Tibb Universitetində Türkiyənin Qazi Universiteti klinikasının baş həkim müavini, professor İlyas Okur və "Leyla Medical Center"in uşaq metabolik xəstəlikləri üzrə mütəxəssisi, doktor Ləman Əlirzayeva ilə görüş keçirilib.**

Görüş zamanı ATU-nun rektoru, professor Gəray Gəraybəyli Qazi Universiteti ilə uzun illərə dayanan əməkdaşlıqdan bəhs edərək, bu əlaqələrin yüksəkixtisaslı tibb mütəxəssislərinin hazırlanmasında mühüm rol oynadığını, eləcə də universitetimizin beynəlxalq əməkdaşlığın inkişafına xüsusi önəm verdiyini bildirib.

Professor İ.Okur çıxışında Qazi Universitetinin beynəlxalq tərəfdaşlığa xüsusi diqqət yetirdiyini bildirərək, ATU ilə mövcud əlaqələrin səmərəli inkişaf etdiyini və bu əməkdaşlığın gələcəkdə daha da genişləndirilməsi üçün mühüm potensialın olduğunu qeyd edib.

İkitərəfli görüş çərçivəsində uşaqlarda metabolik xəstəliklər sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi, müasir diaqnostika və müalicə yanaşmalarının paylaşılması, eləcə də bu istiqamətdə mütəxəssis hazırlığının gücləndirilməsi məsələləri müzakirə olunub.

Görüşün yekununda tərəflər institusional əməkdaşlığın gücləndirilməsi və gələcək birgə fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi barədə ortaq qərara gəliblər.

# ATU-nun stendi xüsusi maraqla qarşılanıb



Elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti bu günlərdə Qazaxıstanın Almatı şəhərinə səfər edib. Səfər çərçivəsində Əl-Farabi adına Qazax Milli Universitetinin Farabi Hub İnnovasiya Mərkəzində Azərbaycan ali təhsil müəssisələrinin "Study in Azerbaijan" beynəlxalq təhsil sərgisi keçirilib.

Nümayəndə heyətinin tərkibində Azərbaycan Tibb Universitetini Əcnəbi təhsilalanlarla iş üzrə dekan Natiq Bayramov və dekan müavini Nüşabə İsgəndərova təmsil ediblər. Sərgidə Azərbaycanın müxtəlif ali təhsil müəssisələri tərəfindən təqdim olunan təhsil proqramları, beynəlxalq əməkdaşlıq və tələbələr üçün təqaüd imkanları barədə iştirakçılara ətraflı məlumat verilib.

Ziyarətçilər Azərbaycan Tibb Universitetinin stendinə xüsusi maraq göstəriblər. Burada universitetimizin imkanları barədə məlumat kitabçaları, reklam broşürləri yer alıb, qazaxıstanlı şagirdlərə xüsusi hədiyyə paketləri təqdim olunub.

Daha sonra nümayəndə heyəti Farabi Hub İnnovasiya Mərkəzində mövcud şəraitlə tanış olub. Azərbaycanlı qonaqlara mərkəzin fəaliyyəti, eləcə də innovasiya və texnologiya yönümlü layihələr barədə ətraflı məlumat verilib. Tanışlıq çərçivəsində mərkəzin müasir laboratoriyalarına da baxış keçirilib.

**ATU-da 7 aprel - Ümumdünya Sağlamlıq Gününə həsr olunmuş "Sağlam dünya - sağlam gələcək" adlı tədbir təşkil olunub. Tədbirin təşkilatçısı, İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının müdiri, dosent Yaqut Hacıyeva iştirakçıları bu əlamətdar gün münasibətilə təbrik edib.**

Dövlət Himni səsləndirildikdən sonra tədbirin aparıcısı, İctimai səhiyyə fakültəsinin tələbə dekanı Aytac Məmmədova qonaqları salamlayaraq tədbirin əhəmiyyətini vurğulayıb.

Tədris işləri üzrə prorektor, professor Anar Ağayev çıxışında bildirib ki, Ümumdünya Sağlamlıq Günü təkcə universitet daxilində deyil, ölkəmizdə fəaliyyət göstərən bir çox səhiyyə müəssisələrində və Səhiyyə Nazirliyinin tabeliyində olan qurumlarda da geniş şəkildə qeyd olunur. O vurğulayıb ki, bu cür tədbirlər əhalinin sağlamlığının qorunması baxımından mühüm əhəmiyyət kəsb edir və bu istiqamətdə yalnız müalicə deyil, eyni zamanda maarifləndirmə və erkən diaqnostika tədbirləri də xüsusi rol oynayır.



# İnsan üçün ən böyük nemət sağlamlıqdır

## "Sağlam dünya - sağlam gələcək" adlı tədbir keçirilib

Elmi işlər üzrə prorektor, professor Məlahət Sultan söyləyib ki, sağlamlıq mövzusu yalnız bir günlə məhdudlaşmır. O qeyd edib ki, insan həyatının hər anı dəyərlidir və bu dəyərin qədrini bilmək hər kəsin borcudur. Pandemiya dövründə əldə olunan təcrübəyə toxunan prorektor, sağlamlığın insan üçün ən böyük nemət olduğunu xatırladıb və "cansağlığı" arzusunun əsl mənasının məhz çətin dövrlərdə daha dərindən dərk edildiyini vurğulayıb.

Tərbiyə işləri üzrə prorektor, dosent Mahir Səfərov isə ictimai səhiyyə sahəsində keçirilən bu cür təşəbbüslərin uzunmüddətli və davamlı təsirə malik olduğunu bildirib. O diqqətə çatdırıb ki, belə tədbirlər tələbələrin peşəkar bilik və bacarıqlarının inkişafına, elmi və praktik təcrübələrinin zənginləşməsinə mühüm töhfə verir.

Daha sonra tələbələrin təşəbbüsü ilə hazırlanmış, sağlam həyat tərzini əks etdirən videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin həkim-metodisti Teymur Musaoğlu bildirib ki, ictimai səhiyyə cəmiyyətin həyat keyfiyyətini müəyyən edən əsas sahələrdən biridir.

İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının əməkdaşı Nigar Yusifova süni intellektin səhiyyədə tətbiqi mövzusuna diqqət çəkib. Kafedranın digər əməkdaşı Kamran Abbasov isə iqlim dəyişikliyi və onun ictimai sağlamlığa təsiri barədə çıxış edib.

Tədbir çərçivəsində tələbələrin iştirakı ilə sağlam həyat tərzini təbliğ edən səhnəcik təqdim olunub. Səhnəcikdə tələbə aktyorlar - Ruslan Dursunov (insan), Familə Babazadə (ürək), Aydan Paşayeva (ağciyər), Fatimə Salahova (mədə), Türkan Əlizadə (böyrək) və Fatimə Səftərova (beyin) öz rollarını yüksək peşəkarlıqla canlandıraraq tamaşaçıların alqışlarını qazanıblar.

Tədbirin sonunda təşkilatçı Y.Hacıyeva və prorektorlar tərəfindən fəal tələbələr sertifikat və hədiyyələrlə təltif olunub.

# Beynəlxalq əlaqələr sahəsində illik fəaliyyət müzakirəyə çıxarılıb

## Rektor, professor Gəray Gəraybəyli: Hədəf auditoriyası və əməkdaşlıq coğrafiyasının genişləndirilməsi prioritetdir

**Aprelin 2-də Böyük Elmi Şuranın növbəti iclası keçirilib. İclası açan rektor, professor Gəray Gəraybəyli gündəlikdə duran məsələləri şura üzvlərinin diqqətinə çatdırdıqdan sonra Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayevin 2025-ci il ərzində görülmüş işlər və qarşıda duran vəzifələr barədə məruzəsi dinlənilib.**

O.İsayev beynəlxalq əlaqələr sahəsində son bir il ərzində həyata keçirilmiş fəaliyyətlər, əldə olunmuş nəticələr və gələcək inkişaf istiqamətləri barədə ətraflı məlumat verib. Deyib ki, hazırda ATU-da 55 ölkədən 2219 nəfər əcnəbi vətəndaş təhsil alır. Müqayisə üçün bildirilib ki, ötən il bu göstərici 45 ölkədən 2603 nəfər təşkil edib. Əcnəbi vətəndaşların 5 təhsil pilləsi üzrə təhsil aldığı diqqətə çatdırılıb. Onların böyük əksəriyyəti baza ali tibb təhsili və bakalavr pilləsində təhsil alır - ümumilikdə 2131 nəfər. Eyni zamanda rezidentura pilləsində 85, magistratura üzrə 1, doktorantura üzrə 2, hazırlıq kursunda isə 105 nəfər təhsil alır.



Məruzəçi ölkələr üzrə dinamikanı təhlil edərək qeyd edib ki, Rusiya, İordaniya, Misir, Fələstin və Gürcüstandan olan tələbələrin sayında artım müşahidə olunur. Bunun əksinə olaraq Türkiyə, İran, Suriya, İraq və Hindistandan olan tələbələrin sayında azalma qeydə alınıb. Belə ki, Türkiyədən olan tələbələrin sayı 1114-dən 1039-a, İrandan olan tələbələrin sayı 543-dən 407-ə, Hindistandan olan tələbələrin sayı 275-dən 251-ə enib. Rusiyadan olan tələbələrin sayı 63-dən 114-ə və Gürcüstandan olan tələbələrin sayı isə 29-dan 45-ə yüksəlib.

Bildirilib ki, baza ali tibb təhsili üzrə təhsil alan tələbələrin fakültələr üzrə bölgüsündə II və I Müalicə-profilaktika və Stomatologiya fakültələri üstünlük təşkil edir. Tələbələrin 56 faizi Azərbaycan, 40 faizi ingilis, 4 faizi isə rus bölməsində təhsil alır. Eyni zamanda, ilk dəfə olaraq İctimai səhiyyə fakültəsinə əcnəbi tələbələrin qəbulu həyata keçirilib.

Çıxışda qeyd olunub ki, universitetdə akademik heyətin dil bacarıqlarının artırılması istiqamətində son üç ildə ardıcıl olaraq ingilis dili kursları təşkil olunur və hazırda 117 nəfər əməkdaş 13 qrup üzrə bu kurslara cəlb edilib. Bununla yanaşı, 257 nəfərə münasibətdə differensial əməkhaqqı mexanizmi tətbiq olunur ki, bu da tədris keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

O.İsayev bildirib ki, əcnəbi vətəndaşların rezidentura və magistratura pillələrinə qəbulu hər il rektorun əmri ilə yaradılan xüsusi komissiya tərəfindən həyata keçirilir. 2025-2026-cı tədris ili üzrə rezidentura pilləsinə 37 müraciət daxil olub, 14 nəfər qəbul olunub.

Hazırda rezidenturada ümumilikdə 17 ölkədən 20 ixtisas üzrə 79 nəfər təhsil alır. Ən çox rezident Rusiya (35 nəfər) və Türkiyədəndir (10 nəfər). İxtisaslar üzrə bölgüyə nəzər saldıqda, mama-ginekologiya (20 nəfər) və dermatovenerologiya (9 nəfər) istiqamətləri üstünlük təşkil edir.

Diqqətə çatdırılıb ki, magistratura pilləsində 1 nəfər Türkiyə vətəndaşı kliniki psixologiya ixtisası üzrə, doktorantura pilləsində isə 2 nəfər - Yəmən və Ukrayna vətəndaşları müvafiq olaraq cərrahiyyə və oftalmologiya ixtisasları üzrə təhsil alır.

Hazırlıq kursu ilə bağlı məlumat verən məruzəçi bildirib ki, bu il müraciət sayında əhəmiyyətli artım qeydə alınıb və ümumilikdə 520 müraciət daxil olub. Müqayisə üçün, ötən il bu göstərici 359 nəfər təşkil edib. Onlardan 105-i hazırlıq kursuna, 125-i isə birbaşa I kursa qəbul olunub. Hazırda hazırlıq kursunda təhsil alan 105 nəferin böyük əksəriyyəti müalicə işi və stomatologiya ixtisaslarını seçib.

Əcnəbi təhsilalanlarla iş sahəsində həyata keçirilən fəaliyyətlərə toxunan O.İsayev qeyd edib ki, bu istiqamətdə müxtəlif dövlət proqramları çərçivəsində iş aparılır. Bunlara İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatına üzv ölkələrin vətəndaşları üçün təhsil qrantları, hökumətlərarası sazişlər, Türkiyənin Yükseköğretim Kurulu xətti ilə təhsil və "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" daxildir. Qeyd olunub ki, hazırda bu proqramlar üzrə ATU-da 27 nəfər təhsil alır.

Azərbaycan Tibb Universitetinin 2023-2030-cu illərdə İnkişaf Strategiyası üzrə Fəaliyyət Planına uyğun olaraq əcnəbi təhsilalanlarla işin gücləndirilməsi məqsədilə bir sıra təkliflər irəli sürülüb. Bunlara ölkələrin coğrafiyasının genişləndirilməsi, beynəlxalq sərgilərdə iştirak, universitetin tanıtım materiallarının hazırlanması, hazırlıq kurslarının məzmununun yenilənməsi, Əcnəbi təhsilalanlar gününün təsis edilməsi və tələbələr üçün dəstək mərkəzinin yaradılması daxildir.

Prorektor beynəlxalq əməkdaşlığın mühüm istiqamətlərindən biri kimi akademik mübadilə proqramlarının əhəmiyyətini xüsusi vurğulayıb. Söylədiyi ki, ATU-da tələbələr üçün xarici ölkələrdə yay praktikası, rezidentlər üçün xaricdə rotasiya, əcnəbi tələbələrin yay və qış proqramlarında iştirakı, eləcə də elmi-pedaqoji staj imkanları təmin olunur. Bununla belə, rezidentlərin xaricdə rotasiyası üzrə müəyyən azalma qeydə alınıb - hesabat ilində 87 nəfər. Ötən il isə 153 nəfər bu proqramlarda iştirak edib.

Qeyd olunub ki, mübadilə proqramları əsasən Erasmus, Orhun və universitetlərarası müqavilələr çərçivəsində həyata keçirilir. Eyni zamanda, Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı çərçivəsində xaricdə doktorantura təhsili alan mütəxəssislərin sonradan universitetdə elmi-pedaqoji fəaliyyətə cəlb olunması istiqamətində işlər davam etdirilir. Artıq bu proqram üzrə məzun olanlardan bir qisminin ATU-da fəaliyyətə başladığı diqqətə çatdırılıb.

Çıxışda ikili diplom proqramlarına da toxunulub və bu istiqamətdə bir sıra nüfuzlu xarici ali təhsil müəssisələri ilə əməkdaşlığın davam etdiyi bildirilib.

Məruzə ətrafında çıxış edən Ailə təbabəti kafedrasının müdiri, professor İbrahim İsayev son illərdə universitetimizin beynəlxalq əlaqələr sahəsində əhəmiyyətli inkişaf yolu keçdiyini vurğulayıb. Bildirib ki, universitet yalnız beynəlxalq proqramlarda və qrant layihələrində iştirak etməklə kifayətlənməyib, eyni zamanda təhsilalan və təhsilverənlərin təcrübəsinin artırılması məqsədilə müxtəlif mübadilə proqramlarını da uğurla həyata keçirib.

Professor qeyd edib ki, kafedranın əməkdaşları beynəlxalq təhsil və təcrübə proqramlarında iştirak edib, Türkiyə, Qazaxıstan və Ukrayna universitetləri ilə əməkdaşlıq nəticəsində təhsilin keyfiyyəti yüksəlib. Onun sözlərinə görə, universitetin təşəbbüsləri yalnız akademik sahədə deyil, sosial və mədəni fəaliyyət istiqamətlərində də uğurla həyata keçirilib. Müxtəlif kurslar və sertifikat proqramları əməkdaşların məsuliyyətini və peşəkarlığını artırmaqla yanaşı, tələbələrin təhsil səviyyəsinə də müsbət təsir göstərib.

İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının müdiri, dosent Yaqut Hacıyeva çıxışında universitetin beynəlxalq proqramlarda iştirakı və beynəlxalq əlaqələrinin genişlənməsinin mühüm imkanlar yaratdığını bildirib. Diqqətə çatdırıb ki, rəhbərlik etdiyi istiqamət üzrə Qazaxıstan və digər ölkələrdən gələn müəllim və tələbələrlə mübadilə proqramları həyata keçirilib, magistr tələbələri beynəlxalq təcrübə və kurslarda iştirak edərək sertifikatlar qazanıb, bu da onların bilik və bacarıqlarının inkişafına müsbət təsir göstərib. Y.Hacıyeva bu əməkdaşlıqların universitetin elmi və tədris potensialını gücləndirdiyini vurğulayıb və beynəlxalq əlaqələr üzrə prorektorluğun gördüyü işləri müsbət qiymətləndirib.

Əcnəbi təhsilalanlarla iş üzrə dekan, dosent Natiq Bayramov bildirib ki, bəzi hallarda viza məsələləri səbəbindən müəyyən çətinliklər yaransa da, qış qəbulu vasitəsilə əlavə tələbələrin cəlbi mümkün olub. Hazırlıq kurslarında əsasən Azərbaycan və ingilis dili, biologiya və fizika fənlərinin tədris edildiyini deyən dekan, bu istiqamətdə işlərin sistemli şəkildə aparıldığını vurğulayıb.




Eləcə də xarici tələbələrin məlumatlarının idarə olunması, anketləşdirilməsi və ünvan dəyişikliyinin izlənməsi məqsədilə müvafiq sistem formalaşdırılıb. Həmçinin onların hüquqlarının qorunması, imtahana buraxılış, təhsilhaqqı ödənişləri və digər inzibati məsələlər üzrə zəruri şərait yaradılıb. Miqrasiya orqanları ilə qurulan əməkdaşlıq nəticəsində xarici tələbələrin əlavə çətinliklərlə üzləşməsinin qarşısı alınıb. Ümumilikdə, universitetdə onların həm təhsil, həm də sosial ehtiyaclarının təmin olunması istiqamətində səmərəli mexanizmlər formalaşdırılıb.

Məruzə və çıxışlarda səslənən fikirlərə münasibət bildirən rektor G.Gəraybəyli qeyd edib ki, universitetin müxtəlif ölkələrdə nüfuzunun artdığı müşahidə olunur. O, tələbə sayında azalma tendensiyasının nəzərəçarpan olduğunu, xüsusilə qonşu ölkələrlə bağlı müəyyən obyektiv səbəblərin mövcudluğunu vurğulayıb və hazırkı vəziyyətin gələcəkdə də davam edə biləcəyini nəzərə alaraq bu istiqamətdə daha aktiv fəaliyyət göstərilməsinin vacibliyini bildirib.

Rektor qeyd edib ki, bu məqsədlə universitetin nümayəndə heyəti ilk dəfə beynəlxalq sərgidə iştirak edəcək. Əvvəlki illərdə tələbə müraciəti sayının kifayət qədər olması səbəbindən bu növ tədbirlərdə iştiraka ehtiyac duyulmasa da, hazırkı mərhələdə hədəf auditoriyasının artırılması və əməkdaşlıq coğrafiyasının genişləndirilməsi prioritet istiqamətdir. Eləcə də doktorantura, elmi layihələr və beynəlxalq proqramlarda iştirakçılıq artırılmalı, bu mənada elmi rəhbərlər, kafedra müdirləri və professor-müəllim heyəti daha fəal mövqe tutmalıdır.

Universitetimizin rəhbəri beynəlxalq reytinqlərdə mövqeyimizin yüksəldilməsi istiqamətində işlərin davam etdirildiyini, ikili diplom proqramları və beynəlxalq əməkdaşlıqların genişləndirilməsinin prioritet olaraq qaldığını vurğulayıb. Bununla yanaşı, tələbələrin beynəlxalq mübadilə proqramlarında iştirakının artırılması, xüsusilə magistr və birinci kurs tələbələrinin xarici təcrübədən daha geniş şəkildə faydalanması üçün əlavə tədbirlərin planlaşdırıldığını bildirib.

Universitetdə tədrisin keyfiyyəti və nizam-intizam məsələlərinə də toxunan professor G.Gəraybəyli, əvvəlki illərlə müqayisədə xoşagəlməz halların sayının əhəmiyyətli dərəcədə azaldığını vurğulayıb. O cümlədən universitetdə idarəetmə və səlahiyyət bölgüsünün optimallaşdırıldığı, bütün proseslərin mərhələli və şəffaf şəkildə həyata keçirildiyi qeyd olunub.

Çıxışının sonunda rektor beynəlxalq əlaqələrin inkişafı, elmi fəaliyyətin gücləndirilməsi və tələbələrin imkanlarının genişləndirilməsinin universitet üçün əsas hədəflər olduğunu bir daha vurğulayıb.

Hesabat məruzəsinə dair müzakirələr başa çatdıqdan sonra digər məsələlərə baxılıb. İclasda Hüquq şöbəsinin yaradılması və strukturunun təsdiq edilməsi, Sənədlər və müraciətlərlə iş şöbəsinin yaradılması və ştat cədvəlində müvafiq dəyişikliyin aparılması, Kadrlar şöbəsinin yenidən təşkil olunaraq, adının İnsan resursları (HR) şöbəsi kimi dəyişdirilməsi, "İctimai sağlamlıq" jurnalının universitet tərəfindən təsisçiliyinin rəsmiləşdirilməsi və Elmi Tədqiqatların İdarə Olunması Departamentinin şöbələrinin adlarının dəyişdirilməsi barədə qərarlar qəbul edilib. Eyni zamanda, Səhiyyə Nazirliyi tərəfindən göndərilən, Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzi tərəfindən hazırlanmış metodik tövsiyələrin təsdiqi barədə razılıq verilib.

Böyük Elmi Şura dərslik, dərs vəsaitləri və tədris proqramlarının nəşri, habelə elmi adların verilməsi məsələlərinin həll etməklə öz işini yekunlaşdırıb.

**Aytac ƏSƏDOVA**

# Şöbə müdiri beynəlxalq ekspert kimi fəaliyyət göstərib



9-11 fevral və 11-13 mart tarixlərində Müstəqil Akkreditasiya və Reytinq Agentliyinin (İndependent Agency for Accreditation and Rating) xarici ekspert komissiyası tərəfindən S.D.Asfendiyarov adına Qazaxıstan Milli Tibb Universitetinə və Karaqanda Tibb Universitetinə səfərlər təşkil olunub.
Səfər çərçivəsində doktorantura və magistratura səviyyələri üzrə təhsil proqramlarının beynəlxalq ixtisaslaşmış akkreditasiyası həyata keçirilib. ATU-nun əməkdaşı, İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin müdiri, dosent Aygün Babayeva qeyd olunan komissiyanın tərkibində beynəlxalq ekspert kimi fəaliyyət göstərib.
Səfər zamanı gələcək mütəxəssislərin peşəkar hazırlıq səviyyəsi hərtərəfli və sistemli şəkildə qiymətləndirilib. A.Babayeva universitet fəaliyyətinin bütün əsas aspektləri ilə tanış olub, universitet rəhbərliyi və kafedra müdirləri ilə qarşılıqlı əməkdaşlığın inkişafına yönəlmiş görüşlər keçirib. Həmçinin tələbələr arasında sorğular aparılıb, doktorant və magistrantların təcrübə keçdikləri simulyasiya mərkəzi, laboratoriyalar və klinik bazalarla tanışlıq həyata keçirilib.
Qeyd edək ki, nümayəndələrimizin bu kimi mühüm proseslərdə iştirakı universitetin akademik heyətinin yüksək peşəkarlıq səviyyəsini və elmi-pedaqoji potensialını ortaya qoyur, eyni zamanda tibbi təhsil sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsinə mühüm töhfə verir.

# Tədris Cərrahiyyə Klinikasında hesabat iclası keçirilib



Tədris Cərrahiyyə Klinikasında şöbələrin fəaliyyətinə dair növbəti hesabat iclası baş tutub. Direktor, dosent Əsədulla Sultanov klinikada müxtəlif ixtisas sahələrinin inkişafının vacibliyini vurğulayıb. O, xüsusilə ixtisaslaşmış şöbələrdə aparılan əməliyyatların keyfiyyətinin artırılması, yeni tibbi yanaşmaların tətbiqi və gənc mütəxəssislərin hazırlanmasının prioritet istiqamətlər olduğunu qeyd edib.
İclas çərçivəsində bu dəfə klinikanın Üz-çənə cərrahiyyəsi və Qulaq, burun, boğaz şöbələrinin fəaliyyəti müzakirə olunub. Üz-çənə cərrahiyyəsi şöbəsinin müdiri, dosent Fərman Həsənov çıxışında şöbədə tətbiq olunan yeniliklər, ilk dəfə icra edilən əməliyyatlar və rezidentlərin prosesdə aktiv iştirakından danışıb. O, həmçinin gənc həkimlərin praktik bacarıqlarının artırılması istiqamətində görülən işləri diqqətə çatdırıb.
Qulaq, burun, boğaz şöbəsinin müdiri Rəşad Talışinski isə rəhbərlik etdiyi bölmənin gündəlik fəaliyyəti, həyata keçirilən əməliyyatların statistik göstəriciləri və əldə olunan nəticələr barədə məlumat verib.
Klinikanın baş həkimi Əli Allahverdiyev tətbiq olunan yeni rəqəmsallaşma sistemindən söz açıb, bu yeniliklərin xidmət keyfiyyətinə və idarəetməyə müsbət təsirini vurğulayıb.

# Stomatoloqlarımız Ağdərədə vətəndaşları müayinə ediblər



**Səhiyyə Nazirliyi işğaldan azad olunmuş ərazilərdə "Böyük Qayıdış" proqramı çərçivəsində kompleks tibbi müayinələr və sağlam həyat tərzinin təşviqi istiqamətində maarifləndirici. tədbirləri davam etdirir. Bu məqsədlə növbəti aksiya 10 aprel tarixində Ağdərə rayonunda keçirilib.**
Aksiyanı nazirliyin təşkilatçılığı ilə ATU-nun Tədris Stomatoloji Klinikasının həkim briqadası həyata keçirib. Həkimlər həm yerli əhalini, həm də Qarabağın bərpasında fəaliyyət göstərən mütəxəssisləri müayinə edərək onlara konsultativ tibbi xidmət göstəriblər.
Aksiya çərçivəsində ilk dəfə olaraq tibdə inqilabi yenilik sayılan BPR Swiss-in SMART-PORT portativ stomatoloji qurğusu tətbiq olunub. Bu müasir qurğu məktəblərdə, qocalar evlərində və səyyar müayinələrdə yüksək keyfiyyətli stomatoloji xidmət göstərməklə, vətəndaşların klinikaya getmək ehtiyacını azaldır və müalicəyə çıxışı daha da asanlaşdırır.
Tədris Stomatoloji Klinikanın direktoru İmran Ağayevin rəhbərliyi altında stomatoloq-terapevt, ortodont, ortoped, cərrah və uşaq stomatoloqu daxil olmaqla, geniş həkim briqadası əhalinin ətraflı müayinəsini həyata keçirib. Ümumilikdə, aksiyada 140-a yaxın vətəndaş tibbi müayinədən keçib, müvafiq müalicə prosedurları aparılıb, erkən diaqnostika və profilaktik konsultasiyalar təmin edilib.

**Aprelin 8-9-da Stomatologiya fakültəsi Tələbə Elmi Cəmiyyətinin 51-ci konfransı keçirilib. Konfransı giriş sözü ilə Elmi işlər üzrə prorektor, professor Məlahət Sultan açıb. O, çıxışında universitetdə keçirilən elmi tədbirlərin əhəmiyyətindən bəhs edərək bildirib ki, bu cür konfranslar yalnız lokal deyil, respublika və beynəlxalq səviyyədə də mühüm rol oynayır.**





# Stomatologiya fakültəsi üzrə TEC-in konfransı keçirilib

## Tələbələr üç dildə təqdimat bacarıqlarını nümayiş etdiriblər

Professor vurğulayıb ki, əsas məqsəd həm klinik, həm də elmi sahədə yüksək potensiala malik kadrların hazırlanmasına töhfə verməkdir. Onun sözlərinə görə, tələbələrin elmi fəaliyyətə cəlb olunması prioritet istiqamətlərdən biridir və son illərdə stomatologiya fakültəsində bu sahədə ciddi irəliləyiş müşahidə olunur.
Daha sonra Tərbiyə işləri üzrə prorektor, dosent Mahir Səfərov çıxış edərək elmi və praktik fəaliyyətin vəhdətinin vacibliyini qeyd edib. Bildirib ki, elm düzgün istifadə edildikdə, güclü bir vasitəyə çevrilir və hər bir mütəxəssisin uğurunda mühüm rol oynayır. Çıxışda tələbələrin mərhələli inkişafı, xüsusilə yuxarı kurslarda formalaşan praktik bacarıqlar və elmi yanaşmanın əhəmiyyəti diqqətə çatdırılıb.
Fakültə dekanı, dosent Elmira Əliyeva qeyd edib ki, belə elmi platformalar tələbələrin həm nəzəri, həm də praktik hazırlığını gücləndirir, onların peşəkar formalaşmasına ciddi təsir göstərir. Dekan tələbələri bu imkanlardan maksimum yararlanmağa çağırıb və vurğulayıb ki, əsas məqsəd yalnız mükafat qazanmaq deyil, bilik və təcrübə toplamaqdır.
TEC-in elmi rəhbəri, dosent Nərgiz Məmmədova çıxışında konfransın maarifləndirici xarakter daşıdığını diqqətə çatdırıb. Bildirib ki, əsas məqsəd tələbələrin elmi mühitə inteqrasiyası, onların tədqiqat və analitik düşüncə bacarıqlarının inkişaf etdirilməsidir. Həmçinin qeyd olunub ki, son dövrlərdə TEC-də aparılan islahatlar və yeni əsasnamənin qəbulu fəaliyyətin daha səmərəli təşkilinə xidmət edir.
Fakültə TEC-in elmi rəhbəri Aybəniz Qadaşova isə tədbirin artıq ənənəvi xarakter aldığını və stomatologiya sahəsində elmi fəaliyyətin təşviqində mühüm rol oynadığını bildirib. Onun sözlərinə görə, seçim mərhələsindən keçən 22 tələbə öz elmi işlərini təqdim etmək imkanı qazanıb. A.Qadaşova vurğulayıb ki, təqdim olunan tədqiqatlar stomatologiyanın müxtəlif istiqamətlərini əhatə edir və praktik problemlərin həllinə yönəlib.
Fakültə TEC-nin sədri Rəvanə Mikayılovanın çıxışından sonra söz məruzəçi tələbələrə verilib.
Aprelin 9-da konfrans öz işini Xarici dillər kafedrasında davam etdirib. Kafedra TEC-nin sədri Gülnar Allahverdiyeva konfransın tələbələr üçün yalnız elmi biliklərin artırılması baxımından deyil, eyni zamanda peşəkar bacarıqların formalaşması üçün mühüm platforma olduğunu vurğulayıb:
Konfrans çərçivəsində tələbələr çıxışlarını ingilis, alman və Azərbaycan dillərində təqdim ediblər. Belə çoxdilli yanaşma tədbirin beynəlxalq standartlara uyğun təşkil olunduğunu nümayiş etdirib. Ümumilikdə 20 tələbə əsas məruzəçi kimi seçilib və onların çıxışları münsiflər heyəti tərəfindən obyektiv meyarlar əsasında qiymətləndirilib. Bütün tələbələrə sertifikatlar, fərqlənən iştirakçılara isə diplomlar təqdim olunub.

# Tələbə Elmi Cəmiyyətinə 12 tələbə seçilib

**1-2 aprel tarixlərində II Müalicə-profilaktika fakültəsinin Ailə təbabəti kafedrasında fakültə Tələbə Elmi Cəmiyyətinə kafedradaxili seçim mərhələsi keçirilib.**
Tədbirdə kafedranın professor-müəllim heyəti ilə yanaşı, Azərbaycan, rus və ingilis bölmələri üzrə təhsil alan III, IV, V və VI kurs tələbələri iştirak ediblər.
Seçim mərhələsi çərçivəsində akademik heyət tərəfindən əvvəlcədən müəyyən edilmiş mövzular üzrə müxtəlif kurslardan olan 32 tələbənin tədris proqramının tematik planına uyğun elmi məruzələri dinlənilib.
Tələbələrin çıxışları kafedranın professor-müəllim heyətindən formalaşdırılmış münsiflər heyəti tərəfindən mövzunun aktuallığı, təqdimatın keyfiyyəti, illüstrativ materialların səviyyəsi, nitq mədəniyyəti və praktik əhəmiyyəti kimi meyarlar əsasında qiymətləndirilib.
Yekunda 12 tələbə seçim mərhələsindən uğurla keçərək fakültə Tələbə Elmi Cəmiyyətində iştirak etmək hüququ qazanıb. Tədbirin sonunda kafedra müdiri, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor İbrahim İsayev tərəfindən ən yaxşı çıxışların müəlliflərinə mükafat olaraq dərsliklər verilib.

**Universitetimizin rezidentləri İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının Tədris Simulyasiya Mərkəzində praktik təlim keçiblər.**



ATU-nun Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının dosenti, rezidentlər üzrə məsul şəxs Nigar Sultanovanın təşkilatçılığı ilə baş tutan təlimdə mərkəzin mütəxəssisi, anestezioloq-reanimatoloq Nərminə Əzizova tərəfindən tədris prosesi aparılıb.
Əsasən reanimatologiya istiqamətinin formalaşdırılması üçün geniş imkanlar yaradır və bu məqsədlə simulyator, fantom və yüksək texnologiyalı robotlardan geniş istifadə olunur.

# Rezidentlərimiz praktik bacarıqlarını təkmilləşdirir

ni əhatə edən, ağız və üz-çənə cərrahiyyəsi ixtisası üzrə təhsil alan rezidentlər üçün nəzərdə tutulan təlim zamanı Seçenov Universiteti Bakı filialının prorektoru, tibb üzrə fəlsəfə doktoru Zəhra Vəzirova iştirakçılara mərkəzin fəaliyyəti barədə ətraflı məlumat verib.
Bildirilib ki, mərkəz müxtəlif ixtisaslar üzrə tibb mütəxəssislərinin hazırlanması, orta və kiçik tibb personalının peşəkar bacarıqlarının inkişafı, həmçinin praktik vərdişlə-
Tələbələr əvvəlcə sözügedən avadanlıqlar üzərində bacarıqlarını inkişaf etdirir, daha sonra isə mərhələli şəkildə real klinik mühitə hazırlanırlar. Mərkəzdə təcili tibbi yardım və hospitaldan kənar vəziyyətlərin simulyasiyası, eləcə də mama-ginekologiya, cərrahiyyə, əməliyyatxana, endoskopiya və reanimasiya üzrə ixtisaslaşmış otaqlar da fəaliyyət göstərir.
Təlimin sonunda iştirakçıların fəaliyyəti vaxtın idarə olunması, texniki bacarıqlar, resurslardan istifadə və klinik qərarvermə meyarları üzrə qiymətləndirilib. Rezidentlər, həmçinin mərkəzdə tətbiq olunan imtahan sistemi ilə yaxından tanış olublar.
Qeyd edək ki, 2019-cu ildən fəaliyyət göstərən mərkəzdə ilkin mərhələdə yalnız Seçenov Universitetinin tələbələri üçün təlimlər təşkil olunub. Hazırda burada I-VI kurs tələbələri üçün müxtəlif fənlər üzrə praktik məşğələlər keçirilir.

# Gələcəyin stomatoloqları praktikada kritik hallarla bağlı maarifləndirilib



Tibb və sağlamlıq elmləri təhsili kafedrasında “Stomatoloji praktikada ilk yardım” adlı tələbə forumu çərçivəsində “Kritik hallarda müdaxilə” mövzusunda tədbir keçirilib. Tədbir Stomatologiya fakültəsi, Tələbə Həmkarlar İttifaqı Komitəsi, adıçəkilən və Təcili tibb kafedralarının birgə təşkilatçılığı ilə baş tutub. Tədbirdə ümumilikdə 70 tələbə iştirak edib.

Açılış mərasimində Tərbiyə işləri üzrə prorektor, dosent Mahir Səfərov, Stomatologiya fakültəsinin dekanı, dosent Elmira Əliyeva, kafedra müdiri, dosent Samir Cavadlı və THİK-nin sədri, assistent Qoşqar İsmayılov çıxış edərək forumun stomatologiya ixtisası üzrə təhsil alan tələbələrin gələcək peşə fəaliyyətində mühüm rol oynadığını bildiriblər.

Tədbirin gedişində Türkiyənin Marmara Universiteti Təcili tibb kafedrasının əməkdaşı, professor Cem Oktay “Kardiopulmonar resusitasiya”, ATU-nun Təcili tibb kafedrasının əməkdaşları - assistent Xatirə Şirinova-Səfərova “Stomatoloji praktikada anafilaksiya” və assistent Günay Hüseynzadə “Boğulma zamanı ilk yardım” mövzularında çıxış ediblər.

Forumun ikinci - praktik təlim hissəsində Tibb və sağlamlıq elmləri təhsili kafedrasının əməkdaşları - baş müəllimlər Samira Məmmədova və Elyanə Təhməzova, assistentlər Vüsal Kərimov, Rəhilə Mircavadlı, Günay Seyidova və Səkinə Heydərova tərəfindən kardiopulmonar reanimasiya (CPR), anafilaksiya zamanı adrenalin inyeksiyası və boğulma zamanı Heimlich manevrası kimi praktik bacarıqlar nümayiş etdirilib. Bu bacarıqlar tələbələr tərəfindən də tətbiq olunub.

Qeyd edək ki, tədbirin təşkilində THİK-in fakültə sədri Məryəm Kərimli və sədr müavini Lalə Əhmədzadə fəal rol oynayıblar.

**Azərbaycan Tibb Universiteti beynəlxalq əlaqələrini və qlobal akademik əməkdaşlığı uğurla davam etdirir.**

# Türkiyə universitetləri ilə əməkdaşlıq əlaqələrimiz genişlənir



Bu çərçivədə, Tədris Departamentinin müdiri, dosent Kamandar Yaqubov, Farmakologiya kafedrasının dosentləri Gülbəniz Hüseynova, Aydın Əliyev və Patofiziologiya kafedrasının dosenti Sevinc Hacıyeva Atatürk Universitetinə səfər ediblər. Nümayəndə heyətimiz Atatürk Universitetinin rektoru, professor Ahmet Hacımüftüoğlu ilə görüşüb. Görüş zamanı iki ali təhsil müəssisəsi arasında elmi əməkdaşlığın dərinləşdirilməsi, birgə tədqiqat layihələrinin icrası, müəllim və tələbə mübadiləsi proqramlarının artırılması, eləcə də tibb sahəsində fənlərarası araşdırmaların təşviqi kimi mühüm məsələlər müzakirə olunub. Məhsuldar və qarşılıqlı etimad şəraitində keçən görüşdə, xüsusilə farmakologiya və patofiziologiya sahələrində birgə elmi fəaliyyətlərin əhəmiyyəti vurğulanıb.

Növbəti görüş Ərzincan şəhərində yerləşən Binəli Yıldırım Universitetində keçirilib. Rektor, professor Akın Levent universitetimizin əməkdaşlarını qəbul edib. Görüşdə perspektiv birgə elmi-tədqiqat fəaliyyəti geniş müzakirə olunub, əməkdaşlığın inkişafı istiqamətində irəli sürülən təşəbbüslərin dəstəkləndiyi vurğulanıb.

# Qazax professor rezidentlərin konfransında iştirak edib

**Dermatovenerologiya kafedrasında rezidentlərin iştirakı ilə növbəti elmi-praktik konfrans təşkil olunub. Silsilə tədbirlərin davamı olan bu konfrans yüksək təşkilatçılıq səviyyəsi və beynəlxalq iştirakla fərqlənib.**

Belə ki, Qazaxıstanın Cənubi Qazaxıstan Tibb Akademiyasının Ümumi həkimlik təcrübəsi və dermatovenerologiya kafedrasının müdiri, professor Gülmirə Datkayeva Azərbaycan Tibb Universiteti ilə əməkdaşlıq memorandumu çərçivəsində həyata keçirilən akademik mobillik proqramı əsasında konfransda iştirak edib.

Konfransı giriş sözü ilə açan Dermatovenerologiya kafedrasının müdiri, professor Fərid Mahmudov qonaqları və iştirakçıları salamlayaraq bu cür tədbirlərin gənc mütəxəssislərin elmi və praktik biliklərinin inkişafında mühüm rol oynadığını vurğulayıb.

Konfrans çərçivəsində rezidentlər müxtəlif mövzular üzrə təqdimatlarla çıxış ediblər. Təqdimatlar iştirakçılar tərəfindən maraqla qarşılanıb, hər çıxışdan sonra geniş elmi müzakirələr aparılıb.



**Martın 27-28-i tarixlərində Şimali Kipr Türk Respublikasının Lefkoşa şəhərində Türk Cümhuriyyətləri Oftalmoloji Dərnəyi tərəfindən beynəlxalq konfrans təşkil olunub. Tədbirdə dünyanın müxtəlif ölkələrindən oftalmologiya sahəsində tanınmış mütəxəssislər və alimlər iştirak edib.**

# Beynəlxalq konfransda təmsil olunmuşuq




Universitetimizin Oftalmologiya kafedrasının əməkdaşları - kafedranın müdiri, professor Paşa Musayev (Qəlbinur), eləcə də dosentlər Hafiz Qəhrəmanov və Tural Qəlbinur müxtəlif elmi sessiyalarda həm məruzəçi, həm də moderator qismində çıxış ediblər. H.Qəhrəmanovun “Katarakta cərrahiyyəsində dar genəlməyən göz bəbəyinin bimanual gərilmə texnikası - bəsit, lakin doğru bir üsuldurmu?” təqdimatında mürəkkəb cərrahi hallarda tətbiq olunan metodların effektivliyi və praktik əhəmiyyəti, T.Qəlbinurun “Diabetik traksional qopmaların cərrahi müalicəsi” adlı məruzəsində isə müasir cərrahi yanaşmalar və əldə olunan nəticələr barədə məlumat verilib.

Konfransın bağlanış mərasimində professor P.Qəlbinur çıxış edərək, tədbirin əhəmiyyətini və beynəlxalq elmi əməkdaşlığın genişləndirilməsinin vacibliyini diqqətə çatdırıb.

# Oftalmologiya sahəsində beynəlxalq əməkdaşlıq müzakirə edilib



Polşanın Kardinal Stefan Vişinski Universitetinin Oftalmologiya kafedrasının əməkdaşları akademik təcrübə mübadiləsi çərçivəsində universitetimizdə olublar.

Kafedra müdiri, professor Agnieszka Kaminska, dr. Stanislav Han və dr. Tabeusz Osipovicz ATU-nun Oftalmologiya kafedrasını ziyarət edərək tədris prosesini, eləcə də əməkdaşların klinik fəaliyyətini yaxından izləyiblər.

Qonaqların iştirakı ilə oftalmologiya sahəsinin mövcud vəziyyəti, əhalinin göz sağlamlığı ilə bağlı aktual problemlərə həsr edilmiş konfrans keçirilib. Kafedra müdiri, professor Paşa Musayev (Qəlbinur) çıxışında qlobal və regional səviyyədə görmə qüsurlarının artmaqda olan dinamikasına xüsusi diqqət yetirib. Qeyd edib ki, demoqrafik dəyişikliklər, əhalinin yaşlanması və həyat tərzi faktorları nəticəsində katarakta, qlaukoma və yaşa bağlı makulyar degenerasiya kimi xəstəliklərin yayılma tezliyi ilbəil artır və bu, səhiyyə sistemləri qarşısında ciddi çağırışlar yaradır.

Sonra professor A.Kaminskanın “Polşa təcrübəsində oftalmologiya: tibb və ictimai səhiyyə arasında” mövzusunda məruzəsi dinlənilib. Professor qeyd edib ki, dünya üzrə təxminən 2,2 milyard insan müxtəlif dərəcəli görmə pozğunluğu və ya korluqdan əziyyət çəkir və bu halların 1 milyarddan çoxu qarşısı alına bilən və ya müalicə oluna bilən səbəblərlə bağlıdır. O, Polşada hər il təxminən 200 min katarakta əməliyyatının həyata keçirildiyini və 2019-cu ildən etibarən bu əməliyyatların dövlət fondu tərəfindən limitsiz maliyyələşdirildiyini diqqətə çatdırıb.

Məruzə tədbir iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb və geniş fikir mübadiləsi ilə davam edib.

Tədbir çərçivəsində oftalmologiya sahəsində akademik mübadilənin genişləndirilməsi, birgə elmi-tədqiqatların aparılması, göz xəstəliklərinin epidemiologiyası və skrininq proqramları üzrə ortaq layihələrin həyata keçirilməsi, müasir diaqnostika üsullarının, o cümlədən OCT texnologiyasının tətbiqi istiqamətində təcrübə paylaşımının vacibliyi bildirilib.

# Alimlərimiz beynəlxalq konqresə qatılıb

**Bu günlərdə Türkiyənin İstanbul şəhərində keçirilən 3-cü Neyrogenetika və Neyrometabolik Xəstəliklər Konqresində universitetimizin nümayəndə heyəti - Nevrologiya kafedrasının müdiri, professor Aytən Məmmədbəyli, doktorantlar İlahə Hacıyeva və Günel Ümid iştirak ediblər.**



Tədbir çərçivəsində təşkil olunan dəyirmi masa müzakirələrində Azərbaycanda nadir (orfan) xəstəliklərin mövcud vəziyyəti geniş şəkildə təhlil edilib. İştirakçılar diaqnostika və müalicə imkanlarının təkmilləşdirilməsi, reabilitasiya xidmətlərinin inkişafı, həmçinin xəstəliklərin erkən aşkarlanması istiqamətində görülən işlər barədə fikir mübadiləsi aparıblar. Bununla yanaşı, SMA (spinal əzələ atrofiyası) və Düşen əzələ distrofiyası üzrə milli reyestrlərin yaradılması və inkişaf perspektivləri də müzakirə mövzusu olub.

Səfər çərçivəsində İstanbul Universiteti Nevrologiya kafedrasının professoru Hacər Durmuş Tekçe ilə görüş keçirilib. Tərəflər elmi əlaqələrin genişləndirilməsi, xüsusilə nadir xəstəliklərdə genetik polimorfizmin öyrənilməsi sahəsində birgə tədqiqatların aparılması imkanlarını müzakirə ediblər.

**Martın son günlərində Polşanın Krakov şəhərində keçirilmiş “Nevrologiyada Mübahisəli Məsələlər üzrə 20-ci Dünya Konqresi” (The 20th World Congress on Controversies in Neurology) nevroloqlar tərəfindən yüksək maraqla qarşılanıb və diqqət mərkəzində olub.**



Bu mötəbər tədbirdə dünyanın 48 ölkəsindən 754 mütəxəssis iştirak edib. Konqres yüksək elmi səviyyəsi və məhsuldar fəaliyyəti ilə beynəlxalq elmi ictimaiyyət tərəfindən geniş tanınır.

# Əməkdaşımızın məruzəsi ən yaxşı təqdimatlar sırasında

Konqresdə ölkəmizi təmsil edən nevroloqlar, o cümlədən Azərbaycan Tibb Universitetinin əməkdaşları - professor Sədaqət Hüseynova, assistentlər Türkan Sultanova, Şəbnəm Quliyeva və Rəna Səmədova, eləcə də digər mütəxəssislər Samirə Məmmədova, Elşad Əliyev və Elşən Abdinli elmi məruzələrlə çıxış edib, beynəlxalq elmi müzakirələrdə fəallıq göstəriblər.

Fizioterapiya və tibbi reabilitasiya kafedrasının əməkdaşı Rəna Səmədovanın postinsult epilepsiyanın müalicəsinə dair poster-məruzəsi konqres çərçivəsində seçilmiş ən yaxşı təqdimatlar sırasında yer alıb və müəllif müvafiq mükafata layiq görülüb.

# Şəhid baş leytenant Cavidan Bədəlovun xatirəsi yad edilib



**Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsi xalqımız tərəfindən daim uca tutulur.**

Martın 28-də İsmayıllı rayonunda keçirilən anım tədbiri antiterror əməliyyatları zamanı qəhrəmancasına şəhid olmuş baş leytenant Cavidan Zaur oğlu Bədəlovun xatirəsinə həsr olunub.

Tədbirdə Hərbi tibb fakültəsinin rəhbər heyəti, yerli icra strukturlarının nümayəndələri, şəhidin ailə üzvləri və döyüş yoldaşları iştirak ediblər.

Anım mərasimində çıxış edən fakültənin rəisi, tibb xidməti polkovniki Məharət Rzayev şəhidlərimizin keçdiyi şərəfli döyüş yolundan bəhs edərək, onların göstərdiyi şücaətin gənc nəsil üçün örnək olduğunu vurğulayıb. Polkovnik çıxışında bir sıra mühüm məqamları diqqətə çatdırıb: "Şəhidlərimiz xalqımızın qürur mənbəyidir, baş tacıdır. Bu gün biz azad və suveren bir ölkədə yaşayırıqsa, buna görə Cavidan kimi qəhrəman oğullarımıza borcluyuq. Onların əziz xatirəsini yaşatmaq, ailələrinə dayaq olmaq hər birimizin həm vətəndaşlıq borcu, həm də mənəvi məsuliyyətdir. Şəhidlərimizin qəhrəmanlığı gələcək nəsillər üçün əbədi örnək olaraq qalacaq".

# NATO DEEP proqramının nümayəndələri ilə görüş keçirilib

**Hərbi tibb fakültəsinin şəhid gizir Mirsalam Cəfərov adına brifinq zalında NATO DEEP - Müdafiə Təhsilinin Genişləndirilməsi Proqramı çərçivəsində görüş keçirilib. Görüşdə fakültənin rəhbər heyəti, NATO DEEP proqramının meneceri Reichel Sarah, proqramın akademik nümayəndəsi dr. David Dworak və başqaları iştirak ediblər.**



Tədbir 2016-cı il Aprel döyüşlərində şəhid olmuş soydaşlarımızın ruhunun bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Bundan sonra çıxış edən Hərbi tibb fakültəsinin rəisi, tibb xidməti polkovniki Məharət Rzayev belə görüşlərin hərbi tibb təhsilində xüsusi əhəmiyyət daşıdığını bildirib. O, NATO DEEP proqramının nümayəndə heyətinə Azərbaycan Tibb Universitetinin inkişaf tarixi, fakültələri, elmi fəaliyyət sahələri, tələbə həyatı, yataqxanalar və xarici tələbələrə yaradılan şərait haqqında məlumat kitabçalarını təqdim edib.

Daha sonra fakültənin Tədris şöbəsi rəisinin Elmi işlər üzrə müavini, milli təhlükəsizlik və hərbi elmlər üzrə fəlsəfə doktoru, tibb xidməti polkovnik-leytenantı Saleh Əhmədov fakültə haqqında slayd təqdim edərək ətraflı məlumat verib.

Görüşdə cari və növbəti ilin planları haqqında müzakirələr aparılıb. Müzakirələr əsasında Hərbi tibb fakültəsi tərəfindən NATO DEEP proqramına 2027-ci il üçün uyğun olan təkliflər irəli sürülüb. Fakültədə təhsil alan tələbə, kursant və zabit-müəllim heyəti üçün Tibbi ingilis dili kurslarının təşkil olunması cari ilin planına daxil edilib.

Milli Müdafiə Universitetinin təhsil işləri üzrə məsləhətçisi Rəşad Əhmədov və Beynəlxalq təhsil-əməkdaşlıq bölməsinin rəisi, mayor Fərman Xuduyev də çıxış edərək gələcəkdə NATO DEEP proqramının heyəti ilə birgə beynəlxalq konfransların təşkil edilməsinin vacibliyini diqqətə çatdırıblar.

**Rezidentura və magistratura şöbəsi və Tədris Terapevtik Klinikanın Uşaq sağlamlığı və xəstəlikləri şöbəsinin birgə təşkilatçılığı ilə rezidentlər üçün "Uşaqlarda pnevmoniya: diaqnostika və müalicə yanaşmaları" mövzusunda seminar keçirilib.**



# Uşaqlarda pnevmoniya mövzusunda rezidentin çıxışı dinlənilib

Tədbiri Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov açaraq bildirib ki, pnevmoniya bu gün də bütün dünyada, xüsusilə pediatrik yaş qrupunda xəstələnmə və ölümün əsas səbəblərindən biri olaraq qalır və aktual tibbi problemlər sırasında xüsusi yer tutur.

Klinikanın Uşaq sağlamlığı və xəstəlikləri şöbəsinin müdiri, assistent Qoşqar İsmayılov çıxış edərək bildirib ki, pnevmoniya ağciyər parenximasının infeksion mənşəli iltihabı olub, əsasən bakterial, viral və atipik etiologiyaya malikdir: "Uşaqlarda pnevmoniyanın klinik gedişi yaşdan asılı olaraq dəyişir və erkən diaqnostika böyük əhəmiyyət daşıyır. Pnevmoniyanın əsas klinik əlamətlərinə qızdırma, öskürək, taxipnoe və tənəffüs çatışmazlığı daxildir. Xüsusilə taxipnoe uşaqlarda pnevmoniyanın ən erkən və etibarlı göstəricilərindən biri hesab olunur. Pnevmoniyanın diaqnozu ilk növbədə klinik əlamətlərə əsaslansa da, auskultativ dəyişikliklər, rentgen müayinəsi və laborator göstəricilər diaqnozun dəqiqləşdirilməsində mühüm rol oynayır".

Daha sonra adıçəkilən şöbənin birinci kurs rezidenti Aytən Muradova-Məmmədli uşaqlarda pnevmoniyaya klinik yanaşma ilə bağlı təqdimatla çıxış edib. O bildirib ki, gündəlik pediatrik praktikada pnevmoniyanın düzgün qiymətləndirilməsi üçün ilk növbədə xəstənin klinik vəziyyətinə əsaslanmaq vacibdir. Çıxışında pnevmoniyanın viral və bakterial formalarının fərqləndirilməsinin müalicə seçimində əsas rol oynadığını söyləyən rezident qeyd edib ki, viral pnevmoniyalar daha çox yüngül gedişli olub, əsasən simptomatik müalicə tələb etdiyi halda, bakterial pnevmoniyalarda antibiotik terapiyası əsas yer tutur.

Seminar çərçivəsində pnevmoniyanın mümkün ağırlaşmaları - plevrit, empiyema, sepsis və tənəffüs çatışmazlığı barədə də ətraflı məlumat verilib.

Diskussiya şəraitində keçən seminarda klinikanın baş həkimi Fəridə Hacıyeva və klinika üzrə rezidentlərə məsul şəxs Arzu Bağırova da iştirak ediblər.

# Əməkdaşlarımızın uğurları




Ağciyər xəstəlikləri kafedrasının əməkdaşları – kafedra müdiri Rafiq Bayramov, kafedranın dosenti Ceyhun İsmayılzadə və assistent Təbib İbrahimov 25-28 mart tarixlərində Türkiyədə keçirilən beynəlxalq pulmonoloji konqresdə iştirak ediblər.

Konqres Türkiyənin Ağciyər xəstəlikləri və İntensiv terapiya dərnəyinin (ASYOD – ağciyər sağlığı və yoğun bakım dərnəyi) təşkilatçılığı ilə keçirilib. 1000-dən çox iştirakçının olduğu konqresə təkcə Türkiyədən deyil, bir sıra ölkələrdən də məruzəçi və iştirakçılar qatılıb.

Konqresə dəvət olunmuş beynəlxalq məruzəçilər arasında Amerika Birləşmiş Ştatları, İtaliya, Avstraliya, İngiltərə, Almaniya, Belçika ilə yanaşı, Azərbaycanın da adının olması çox sevindiricidir. Konqresin "Vərəmin idarə olunmasında mövcud yol xəritəsi" adlı sessiyasına sədrlik edən Ağciyər xəstəlikləri kafedrasının müdiri Rafiq Bayramov, eyni zamanda "Ağciyərlərin xronik obstruktiv xəstəliyi" bölməsində məruzə ilə çıxış edib.

Müxtəlif bronx-ağciyər patologiyalarının diaqnostika, müalicə və profilaktikasına müasir yanaşmalara aid məruzə və müzakirələrə geniş yer verilmiş konqresdə kafedranın dosenti C.İsmayılzadə və assistent T.İbrahimov da həm məruzə, həm də e-poster şəklində çıxış ediblər.

* * *

Nevrologiya kafedrasının müdiri, professor Aytən Məmmədbəyli və həmin kafedranın dosenti Şəhla Məlikovanın elmi məqaləsi növbəti dəfə yüksək impakt faktorlu, PubMed, Web of Science, Scopus, Embase və digər beynəlxalq elmi məlumat bazalarında indeksləşən Q2 kateqoriyalı jurnalda dərc olunub.

Alimlərimizin əldə etdikləri nəticələr bu dəfə nevrologiya sahəsində dünyanın ən nüfuzlu elmi nəşrlərindən biri hesab olunan Böyük Britaniyanın "Seizure: European Journal of Epi-


Contents lists available at ScienceDirect
ELSEVIER
Seizure: European Journal of Epilepsy
journal homepage: www.elsevier.com/locate/seizure

Seizure control, delivery, and neonatal outcomes in pregnant women with focal epilepsies: a prospective cohort study

Shahla Melikova [a,*], Aytan Mammadbayli [b]

[a] Department of Neurology, Azerbaijan Medical University, Baku, Azerbaijan, Secretary General of the Azerbaijan League Against Epilepsy, 100 Mardanov Gardashlari str., Baku, Azerbaijan
[b] Department of Neurology, Azerbaijan Medical University, The President of the Azerbaijan League Against Epilepsy, 100 Mardanov Gardashlari str., Baku, Azerbaijan

ARTICLE INFO

Keywords:
Antiseizure medication
Focal epilepsy
Neonatal outcomes
Perinatal hypoxia
Pregnancy
Seizure control

ABSTRACT

Objective: To prospectively investigate seizure control during pregnancy in women with focal epilepsies, to assess the impact of specific forms of focal epilepsy (FE) on delivery and neonatal outcomes, and to compare these outcomes with those in pregnancies of women without epilepsy.
Methods: Seventy-nine women with FE, recruited from a large cohort of pregnant women, were prospectively evaluated for over a ten-year period. Seizure, obstetric, and neonatal outcomes were analyzed across the different forms of FE.
Results: Seizures occurred in 77.2 % of women with FE, with higher incidence in frontal lobe epilepsy (FLE) (88.2 %) and temporal lobe epilepsy (TLE) (84.1 %) compared with other focal epilepsies (OFEs) (50.0 %) ($p = 0.02$

lepsy" jurnalında çap edilib. Tədqiqat çərçivəsində epilepsiyalı hamilə qadınlarda hamiləlik dövründə doğuş və neonatal nəticələrə təsir göstərən amillər araşdırılıb. Müəlliflər indiyədək elmi ədəbiyyatda təsvir olunmamış və ya kifayət qədər öyrənilməmiş mühüm göstəriciləri ilk dəfə təqdim edərək, onların təsirini əsaslandırılmış müqayisəli təhlil əsasında qiymətləndiriblər.

Qeyd edək ki, bu, müəlliflərin "Seizure" jurnalında üçüncü elmi nəşridir və bu nailiyyət əhəmiyyətli elmi uğur kimi qiymətləndirilir. Bununla yanaşı, aparılan tədqiqatın nəticələrinin bir hissəsi 2025-ci ilin oktyabrında nevrologiya sahəsində nüfuzlu "Revue Neurologique" jurnalında da dərc olunub.

* * *



Psixiatriya kafedrasının professoru Zəfər Əliyev və Nevrologiya kafedrasının assistenti Sona Əliyeva 28-31 mart 2026-cı il tarixlərində Çexiyanın Praqa şəhərində keçirilmiş 34-cü Avropa Psixiatriya Konqresi (EPA) çərçivəsində "Yetkinlərdə depressiya və başağrısının xüsusiyyətləri arasındakı əlaqə" adlı təqdimatla çıxış ediblər.

Təqdimat konqres iştirakçıları tərəfindən maraqla qarşılanıb, mövzu ətrafında geniş elmi müzakirələr aparılıb.

Qeyd edək ki, Avropa Psixiatriya Konqresi psixiatriya sahəsində dünyanın müxtəlif ölkələrindən alim və tədqiqatçıları bir araya gətirən, elmi yeniliklərin və qabaqcıl təcrübələrin müzakirə olunduğu ən nüfuzlu beynəlxalq tədbirlərdən biridir.

* * *

Aprelin 8-11-də Türkiyənin Antalya şəhərində 12-ci Beynəlxalq Klinik İmmunologiya Konqresi keçirilib. Builki konqresin "İmmun sistemi, autoimmun və autoinflamator xəstəliklər" adlanan əsas mövzusu geniş şəkildə müzakirə olunub, həmçinin gənclər üçün kurslar və ekspert məsləhət görüşləri təşkil edilib.

Konqresə xarici mütəxəssislərlə yanaşı, Türkiyənin müxtəlif bölgələrindən immunoloqlar, immunologiya ilə maraqlanan pediatriya və daxili xəstəliklər mütəxəssisləri, eləcə də uşaq revmatologiyası üzrə həkimlər qatılıblar.

Birinci və ikincili immun çatışmazlıqlar, yeni diaqnoz qoyulmuş anadangəlmə immundefisitlər, o cümlədən immun sisteminin tənzimlənməsinin pozulması nəticəsində baş verən autoinflamator və autoimmun xəstəliklərin patofiziologiyası, klinik gedişi, laborator nəticələri və müalicəsi müzakirəyə çıxarılıb, bir-birindən maraqlı məruzələr dinlənilib, geniş diskussiyalar aparılıb.




Çıxışlar içərisində alman professoru Bodo Grimbacherinin "Həm immun çatışmazlığın, həm də immunitet tənzimlənməsinin monogen səbəbləri", Böyük britaniyalı professor Bernice Lonun "İmmunitet tənzimləmə pozğunluğu olan xəstələrin genetik dəyərləndirilməsi: klinik təcrübədən müşahidələr" və Türkiyənin tanınmış immunoloqu professor Safa Barışın "İmmun disregulyasiya ilə seyr edən xəstəliklərə ümumi baxış" adlı məruzələri daha böyük marağa səbəb olub.

Ölkəmizi bu konqresdə bir neçə poster çıxışı ilə ATU-nun II Uşaq xəstəlikləri kafedrasının dosenti Məleykə Kərimova təmsil edib.

* * *



Nevrologiya kafedrasının dosenti Rahim Əliyev Brüsseldə keçirilmiş "Avropa Beyin Sağlamlığı Sammiti", "Avropada və ondan kənarda nevrologiyanın inkişafının gücləndirilməsi" adlı beynəlxalq tədbirlərdə iştirak edib.

Avropa Nevrologiya Akademiyası tərəfindən təşkil olunan tədbirə 50-yə yaxın ölkənin nevrologiya cəmiyyətlərinin nümayəndələri qatılıb. R.Əliyev Azərbaycan üzrə nevrologiyanın inkişaf prioritetlərini diqqətə çatdırıb və müzakirələrdə xüsusi fəallıq göstərib.

Tədbir həm də Avropa Nevrologiya Akademiyasının Azərbaycan üzrə nümayəndəsinin yenidən seçilməsi ilə yadda qalıb. Bu vəzifəyə ATU-nun Nevrologiya kafedrasının müdiri, professor Aytən Məmmədbəyli seçilib.

Eyni zamanda, tədbir çərçivəsində üzv cəmiyyətlərin iştirakı ilə Avropada beyin sağlamlığı və nevrologiyanın inkişafı məqsədilə "Brüssel Nevrologiya Deklarasiyası" imzalanıb.

## I Mamalıq-ginekologiya kafedrasında yubiley tədbiri keçirilib



I Mamalıq-ginekologiya kafedrasının dosenti Şəfəq Əsədovanın 70 illik yubileyi qeyd olunub. Kafedranın müdiri, professor Elmira Əliyeva yubilyarı təbrik edərək onun elmi-pedaqoji fəaliyyətinin yüksək qiymətləndirildiyini, həmçinin universitetin rektorunun təbriklərini iştirakçıların diqqətinə çatdırıb.
Rezidentura və magistratura şöbəsinin müdiri İlhamə Mustafayeva da Ş.Əsədovanı təbrik edərək, onun gənc kadrların hazırlanmasındakı rolunu xüsusi vurğulayıb.
Tədbir çərçivəsində kafedranın əməkdaşları çıxış edərək Şəfəq xanımın uzunillik səmərəli fəaliyyətindən danışıb, ona möhkəm cansağlığı və gələcək fəaliyyətində uğurlar arzulayıblar.

## Erkən diaqnostika autizmin idarə olunmasında əsas rol oynayır



**Hər il 2 aprel tarixi Ümumdünya Autizm Maarifləndirmə Günü kimi qeyd olunur. Autizm spektr pozuntusu (ASP) müasir dövrdə uşaq nevrologiyası və psixiatriyasının ən aktual problemlərindən biri hesab edilir. Son illərdə aparılan tədqiqatlar bu pozuntunun yayılma tezliyinin artdığını göstərir.**
Ümumdünya Səhiyyə Təşkilatının 2023-cü il üzrə məlumatına görə, autizm hər 100 uşaqdan 1-də müşahidə olunur. Bu artım qismən diaqnostika metodlarının təkmilləşməsi və erkən aşkaretmə imkanlarının genişlənməsi ilə bağlı olsa da, etioloji faktorların mürəkkəbliyi mövzunun aktuallığını daha da artırır.
Autizm spektr pozuntusu, əsasən sosial ünsiyyət və qarşılıqlı əlaqədə çətinliklər, həmçinin təkrarlayıcı davranışlar və məhdud maraq dairəsi ilə xarakterizə olunur. Xəstəliyin əlamətləri hər bir fərddə fərqli şəkildə özünü göstərə bildiyi üçün diaqnostika və müalicə yanaşmaları fərdi qaydada seçilməlidir. Nevroloji baxımdan ASP, beyin inkişafının erkən mərhələlərində baş verən neyrobioloji dəyişikliklərlə əlaqələndirilir. Araşdırmalar autizmli uşaqlarda beyin strukturu və funksiyasında müəyyən fərqliliklərin olduğunu, xüsusilə frontal və temporal paylarda, həmçinin limbik sistemdə struktur və əlaqə dəyişikliklərinin qeyd edildiyini göstərir. Sinaptik plastiklik, neyron şəbəkələrinin təşkili və neyrotransmitter sistemlərində (xüsusilə glutamat və GABA balansında) yaranan disfunksiya bu pozuntunun patogenezində mühüm rol oynayır.
Genetik faktorlar autizmin inkişafında əsas komponentlərdən biridir və müxtəlif gen mutasiyaları, həmçinin xromosom anomaliyaları ilə əlaqələndirilir. Bununla yanaşı, prenatal və perinatal dövrdə təsir edən ətraf mühit faktorları da risk amilləri kimi nəzərdən keçirilir. Nevroloji aspektlər çərçivəsində autizm tez-tez epilepsiya, diqqət defisiti və hiperaktivlik sindromu, intellektual gerilik və sensor inteqrasiya problemləri ilə komorbid şəkildə müşahidə olunur. Bu isə müalicədə multidissiplinar yanaşmanın vacibliyini ön plana çıxarır.
Erkən diaqnostika və müdaxilə autizmin idarə olunmasında əsas rol oynayır. Davranış terapiyaları, nitq və peşə terapiyası, həmçinin ailə dəstəyi proqramları uşağın sosial adaptasiyasını və funksional bacarıqlarını əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilər.
Nəticə etibarilə, ASP kompleks nevroloji bir vəziyyətdir və bu mövzu erkən aşkarlanmanın, fərdiləşdirilmiş müalicə və multidissiplinar yanaşmaların nə qədər vacib olduğunu bir daha təsdiqləyir.

**Samirə İSMAYILOVA,**
Nevrologiya kafedrasının assistenti

## Bir kafedrada iki yubiley

**Bu baharın ilk ayında Normal fiziologiya kafedrasının iki əməkdaşının yubileyi qeyd edildi. Dosent Əzizə Rüstəmzadənin 80, professor Əhməd Kazımovun isə 70 yaşı tamam oldu.**

**Əzizə Şükür qızı Rüstəmzadə** 1969-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki ATU) Müalicə-profilaktika fakültəsini fərqlənmə diplomu ilə bitirib. O, 1969-72-ci illərdə Normal fiziologiya kafedrasında aspirantura təhsilini davam etdirib. 1972-ci ildə həmin kafedrada assistent vəzifəsinə seçilən Ə.Rüstəmzadə 1977-ci ildə Moskva şəhərində P.Anoxin adına Normal Fiziologiya İnstitutunda namizədlik dissertasiyasını müdafiə edərək, tibb elmləri namizədi alimlik dərəcəsini alıb. 1981-ci ildə kafedranın baş müəllimi, 1988-ci ildə isə dosenti seçilib.
Ə.Rüstəmzadə ATU-nun Dissertasiya Elmi Şurasının üzvü, 2011-ci ildən Dövlət İmtahan



Mərkəzinin fiziologiya fənni üzrə ekspertidir.
İşlədiyi müddətdə iki dəfə Moskva şəhərində, Həkimləri Təkmilləşdirmə İnstitutunda və İ.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetində ixtisasartırma kursunda olub. Həm də elmi işlərə böyük həvəs göstərən, kafedranın plan üzrə işlərində yaxından iştirak edən Ə.Rüstəmzadə Normal fiziologiya üzrə stomatologiya fakültəsinin tələbələri və rezidentura üçün yazılan dərsliklərin, 155-dən çox elmi məqalənin, Azərbaycan, rus və ingilis dillərində test kitablarının, həmçinin 3 metodik göstəriş və 3 dərs vəsaitinin (Azərbaycan, rus və ingilis dillərində) müəllifidir.
**Əhməd Hacı oğlu Kazımov** 1956-cı il martın 23-də Qərbi Azərbaycanda, Kalinino rayonunun İlməzli kəndində müəllim ailəsində anadan olub. 1974-80-ci illərdə Tibb İnstitutunda təhsil alıb, 1980-85-ci illərdə Kurortlar İdarəsinin "Qızıl-qum" və "Abşeron" sanatoriyalarında həkim işləyib. 1985-88-ci illərdə Normal fiziologiya kafedrasının aspiranturasında təhsil alan Ə.Kazımov 1988-ci ildə həmin kafedraya assistent təyin edilib. 1989-cu ildə Moskvada dissertasiya işini müdafiə edərək tibb elmləri namizədi elmi dərəcəsini alıb. 1993-cü ilədək kafedranın assistenti, 1993-2007-ci illərdə baş müəllimi, 2007-ci ildən dosenti, 2002-2005-ci illərdə tədrisdən ayrılmamaqla Nərimanov rayonu Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru vəzifələrində çalışıb. 1 saylı Respublika Ruhi Xəstəxanasında 1992-ci ildən bu günə kimi psixi pozulmaların klinik neyrofizioloji müayinəsi diaqnostikası ilə məşğul olmaqla yanaşı, 1993-cü ildən 2012-ci ilədək Bakı şəhəri Psixi Sağlamlıq Mərkəzinin klinik neyrofiziologiya laboratoriyasında elektrofizioliji tədqiqatları təşkil etməklə



diaqnostik müayinələrin aparılmasına rəhbərlik edib. 2013-cü ildə doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək tibb üzrə elmlər doktoru elmi dərəcəsinə layiq görülüb. 2015-ci ildə müsabiqə yolu ilə Normal fiziologiya kafedrasının professoru vəzifəsinə seçilən Ə.Kazımov üç dərslik, bir monoqrafiya, 1 tədris-metodik vəsaitin və 160 elmi əsərin müəllifidir. Bu elmi əsərlər xarici ölkələrin yüksək kvartilli jurnallarında və respublika mətbuatında dərc olunub.
Yubileyi ərəfəsində səhiyyə sahəsində uzunmüddətli, qüsursuz və səmərəli fəaliyyətinə görə Səhiyyə Nazirliyi tərəfindən Fəxri Fərmanla təltif edilən Ə.Kazımov təbabətlə yanaşı incəsənət, rəssamlıq və musiqi sahəsindəki istedadı, bacarıqları ilə də tanınır.
Hər iki yubilyarı – kollektivimizin rəğbətini qazanan həmkarlarımızı və tələbələrin sevimli müəllimlərini təbrik edir, onlara möhkəm cansağlığı, şəxsi həyatlarında, elmi və pedaqoji fəaliyyətlərində uğurlar arzulayırıq!

**Normal fiziologiya kafedrasının əməkdaşları**

## Həkimlərimiz ağır əməliyyatların öhdəsindən uğurla gəlir



II Cərrahiyyə kafedrasının və Tədris Cərrahiyyə Klinikasının Ümumi cərrahiyyə şöbəsinin müdiri, professor Xaləddin Musayevin rəhbərliyi ilə nadir rast gəlinən kolo-vaginal fistula əməliyyatı uğurla həyata keçirilib.
Professor bu xəstəliyə abdominal cərrahiyyədə az rast gəlindiyini qeyd edib: "Bu xəstəliyə az rast gəlinsə də, xəstələrin sosial həyatını ciddi şəkildə məhdudlaşdırır və ətraf mühitə qarşı ikrah hissi yaradır. Bağırsaq divertikullarının iltihablaşması nəticəsində ağırlaşmalar formalaşır və nəticədə bağırsaq ilə vaginal sahə arasında patoloji əlaqə – kolo-vaginal fistula yaranır. Bu vəziyyət pasiyentin həyat keyfiyyətini aşağı salır və təcili, kompleks tibbi müdaxilə tələb edir".
Əməliyyat edilən xəstə 74 yaşlı qadındır. Uzun müddət bağırsaq divertikullarının iltihablaşması fonunda yaranan ağırlaşmalardan əziyyət çəkib. İltihabi proses nəticəsində abses (irin toplanması) formalaşıb və S-vari bağırsaq ilə uşaqlıq yolu arasında patoloji əlaqə yaranıb. Bunun nəticəsində pasiyentin nəcis kütləsi uşaqlıq yolundan xaric olmağa başlayıb.
X.Musayev bildirib ki, əməliyyat texniki cəhətdən mürəkkəb olsa da, uğurla icra edilib. S-vari bağırsaq sağlam toxuma səviyyəsində fistuladan keçərək rezeksiyaya məruz qalıb, fistula yolu ləğv edilib və stepler vasitəsilə uc-uca anastomoz qoyulub. Beləliklə, bağırsağın tamlığı bərpa olunub və uşaqlıq yolundan gələcəkdə nəcis kütləsinin keçməsinin qarşısı alınıb.
Həkim deyir ki, bu tip əməliyyatlar yalnız ixtisaslaşmış xəstəxanalarda və sahə üzrə təcrübəli cərrahlar tərəfindən aparılmalıdır. Praktikada belə əməliyyatlar zamanı müxtəlif çətinliklərlə rastlaşmaq mümkündür. Peşəkar şəkildə həyata keçirilmiş bu əməliyyatda heç bir ciddi fəsad yaranmayıb və əməliyyat uğurla başa çatdırılıb.

* * *



Qulaq, burun, boğaz kafedrasının müdiri, Tədris Cərrahiyyə Klinikasının Otolorinqologiya şöbəsinin cərrahı, professor Vəfa Pənahianın rəhbərliyi ilə çəpər əyriliyi (septum deviasiyası) əməliyyatı həyata keçirilib.
V.Pənahian bildirib ki, çəpər əyriliyi burun tənəffüsünü əhəmiyyətli dərəcədə poza bilər və xəstələrdə nəfəsalma çətinliyi, burun qanamaları, burun tıxanıqlığı kimi şikayətlərə səbəb olur. Əməliyyatın məqsədi burun çəpərini normal vəziyyətinə gətirmək, nəfəs funksiyasını bərpa etmək və xəstənin həyat keyfiyyətini artırmaqdır.
"Bu gün əməliyyat olunan xəstə 44 günlük Vətən müharibəsi qazisidir. Aldığı travma nəticəsində burun çəpərinin qığırdağı və sümük strukturları sınıb. Müayinələr zamanı çəpərdə deformasiya, sağ tərəfə çıxmış qığırdaq və sol tərəfdə travmadan sonra əmələ gəlmiş bitişmələr(sinixiyalar) aşkar olunub. Bu vəziyyət xəstədə tənəffüs çətinliyinə səbəb olub. İlk müraciət zamanı xəstədə sinusit əlamətləri də müəyyən edildiyindən ilkin olaraq sinusit müalicəsi aparılıb və vəziyyət yaxşılaşdıqdan sonra əməliyyat həyata keçirilib. Xəstənin anatomiyasına uyğun fərdi texnika seçilib" - professor deyib.
Onun sözlərinə görə, müdaxilə zamanı əsas diqqət yetirilən məqamlar burun dəstələrinin qorunması, qanaxmanın qarşısının alınması və əməliyyatdan sonrakı şişkinliklərin minimuma endirilməsidir.
Əməliyyat müvəffəqiyyətlə icra olunub və xəstə əməliyyatdan sonra normal nəfəs almağa başlayıb.
Həkim qeyd edib ki, çəpəri əyriliyi şikayəti son dövrlərdə şöbənin stasionarına müraciət edən xəstələrin təxminən 30 faizini təşkil edir.

* * *



Klinikanın Neyrocərrahiyyə şöbəsində boyun fəqərələri arası disk yırtığı diaqnozu ilə müraciət edən xəstə üzərində uğurlu cərrahi əməliyyat həyata keçirilib.
Şöbənin müdiri, dosent Cəmil İskəndərovun sözlərinə görə, xəstə dözülməz ağrı sindromu ilə müraciət edib. Ona güclü ağrıkəsicilər tətbiq olunmasına baxmayaraq, ağrı azalmayıb, tədricən qola yayılıb, qolda keylik və gücsüzlük müşahidə olunub.
Aparılan müayinələr nəticəsində ağrının səbəbinin boyunun 6-cı və 7-ci fəqərələri arasında yerləşən disk yırtığı olduğu müəyyən edilib.
Xəstə təcili əməliyyata götürülüb. Təxminən 1 saat davam edən əməliyyat uğurla başa çatıb, diaqnoz MRT müayinəsi əsasında təsdiqlənib.
Həkim bildirib ki, son illərdə boyun yırtığı hallarında ciddi artım müşahidə olunur. Bunun əsas səbəbləri arasında uzun müddət kompüter və mobil telefonlardan düzgün olmayan vəziyyətdə istifadə, boyun nahiyəsinin həddindən artıq yüklənməsi göstərilir.

# Rezidentimizin tədqiqat məqaləsi dünya birincisi olan jurnalda

**Üz-çənə cərrahiyyəsi sahəsində aparılan innovativ elmi tədqiqatın nəticələri beynəlxalq elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilib. Belə ki, sözügedən tədqiqat işi Amerika Estetik-plastik Cərrahiyyə Cəmiyyətinin orqanı olan yüksək reytinqli, Q1 kvartilli "Aesthetic Surgery Journal"da (ASJ) dərc olunub.**



Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının rezidenti Surayyə İsgəndərovanın əsas müəllifi olduğu məqalənin çap edildiyi bu jurnal öz sahəsi üzrə dünya miqyasında birinci yerdə qərarlaşır və 3.9 impakt faktoru ilə seçilir. Bu göstərici jurnalın yüksək elmi təsir gücünə və geniş akademik nüfuza malik olduğunu təsdiqləyir.

Qeyd etmək lazımdır ki, adıçəkilən jurnalda məqalələrin dərc olunması adətən yüksək qiymətə - təxminən 6000 ABŞ dollarına başa gəlir. Lakin bu elmi işin yüksək keyfiyyəti və aktuallığı nəzərə alınaraq məqalə tam ödənişsiz (full waiver) qəbul edilib. Bu uğur həm tədqiqatın elmi dəyərinin, həm də Azərbaycan tibb elminin beynəlxalq arenada artan nüfuzunun bariz göstəricisidir.

Araşdırma blefaroplastika əməliyyatlarından sonra yaranan erkən postoperativ ağırlaşmaların azaldılması və sağalma prosesinin sürətləndirilməsi məqsədilə Platelet-Rich Fibrin (PRF), xüsusilə injectable PRF (i-PRF) tətbiqinin klinik effektivliyinin qiymətləndirilməsinə həsr olunub. Tədqiqatda əsas yenilik i-PRF tətbiqinin sağalma müddətini qısaltması, ödem və ağrını azaltması, çapıq toxumasının keyfiyyətini yaxşılaşdırması kimi klinik nəticələrinin qiymətləndirilməsindən ibarətdir.

36 pasiyentin cəlb olunduğu tədqiqat 2023-2025-ci illər ərzində ATU-nun Tədris Cərrahiyyə Klinikasında aparılıb. Xüsusi vurğulanmalıdır ki, tədqiqatın ideyası S.İsgəndərovaya məxsusdur, pasiyentlərin hər biri üzərində cərrahi əməliyyatlar onun tərəfindən icra edilib və məqaləni özü qələmə alıb.

# Doktorantımız Türkiyədə akademik mobillikdə iştirak edib

Universitetimizin doktorantı Səbinə Mehdizadə 23-27 mart tarixlərində Erasmus+ proqramı çərçivəsində Türkiyənin Afyonkarahisar Sağlık Bilimleri Universitetində (AFSÜ) akademik mobillikdə iştirak edib.

Doktorant Tibb fakültəsinin İctimai səhiyyə kafedrasında epidemiologiya ixtisası üzrə təcrübə keçərək bu sahədə nəzəri biliklərini və praktik bacarıqlarını daha da inkişaf etdirib. Proqram müddətində o, beynəlxalq akademik mühitlə yaxından tanış olub, müasir yanaşmalar və elmi-tədqiqat istiqamətləri üzrə dəyərli təcrübə qazanıb.

S.Mehdizadə mobillik çərçivəsində müxtəlif elmi müzakirələrdə və seminar sessiyalarında da iştirak edərək fərqli ölkələrdən olan tədqiqatçılarla fikir mübadiləsi aparıb.

Bu təcrübə onun gələcək elmi fəaliyyətində beynəlxalq əməkdaşlıq imkanlarının genişlənməsinə və yeni tədqiqat istiqamətlərinin formalaşmasına zəmin yaradıb. Eyni zamanda, əldə olunan bilik və təcrübələrin Azərbaycan Tibb Universitetində tətbiqi gözlənilir.



# Beynəlxalq olimpiadada yüksək nəticələr qazanmışıq



2026-cı ilin aprel ayında Qazaxıstan Səhiyyə Nazirliyinin nəzdində fəaliyyət göstərən NCJSC "Semey Medical University"nin təşkilatçılığı ilə Adilkhanov Oral Abdulgalimovichin xatirəsinə həsr olunmuş beynəlxalq LINGUAFEST ingilis dili olimpiadası keçirilib.

Ali təhsil müəssisələrinin qeyri-linqvistik ixtisaslarında təhsil alan I və II kurs tələbələri arasında keçirilən olimpiadada Azərbaycan Tibb Universitetinin tələbələri uğurla çıxış ediblər. Belə ki, Leyla Kərimli yüksək nəticə göstərərək Grand Prix mükafatına layiq görülüb. Fatimə Mövsümova isə III yeri qazanıb.

Bu nailiyyət tələbələrimizin xarici dil biliklərinin yüksək səviyyədə olduğunu və onların beynəlxalq platformalara geniş çıxış imkanlarını ortaya qoyur.

**I Müalicə-profilaktika fakültəsinin IV kurs tələbələri Nuray Cəfərova və Ləman Sadıxova martın 26-da Latviyanın paytaxtı Riqa şəhərində təşkil olunmuş "University of Latvia 2026. Medicine and Health Sciences" adlı beynəlxalq konfransda iştirak ediblər.**

# Tələbə elmi-tədqiqat işləri Latviyada maraqla qarşılanıb

Konfransın çərçivəsində müasir tibbin aktual problemlərinə həsr olunmuş tələbə elmi-tədqiqat işləri təqdim olunub. N.Cəfərovanın mamalıq və ginekologiya, L.Sadıxovanın isə oftalmologiya sahəsi üzrə elmi işləri iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.



Konfransın yekunlarına əsasən, təqdim edilmiş tezislər Scopus beynəlxalq elmi bazasında indeksləşən (Q3) "Proceedings of the Latvian Academy of Sciences" jurnalında dərc olunmaq üçün qəbul edilib.

Tələbələr beynəlxalq elmi mühitdə ölkəmizi təmsil etmək imkanına görə Azərbaycan Tibb Universitetinin rəhbərliyinə minnətdarlıqlarını bildirirlər.

# Hepatitlərdən bəhs edən kitab işıq üzü görüb

Azərbaycan Tibb Universitetində tədris və elmi ədəbiyyatın zənginləşdirilməsi istiqamətində növbəti mühüm nəşr işıq üzü görüb. Professor Sədrəddin Atakişizadənin müəllifliyi ilə hazırlanmış "Hepatitlərin diferensial diaqnostikası" adlı dərs vəsaiti çapdan çıxıb.




296 səhifədən ibarət olan vəsait infeksion patologiyanın mühüm hissəsini təşkil edən hepatitlər probleminə həsr olunub. Nəşrdə qaraciyər və öd yollarının patologiyalarının diaqnostik əhəmiyyəti, eləcə də hepatitlərin müxtəlif növləri barədə geniş və sistemli məlumat verilir. Xüsusilə autoimmun, alkoqol, toksiki, leptospiroz, malyariya və virus mənşəli hepatitlərin etiologiyası, epidemiologiyası, patogenezi, klinik mənzərəsi, mikrobioloji və differensial diaqnostikası, həmçinin müasir müalicə və profilaktika prinsipləri ətraflı şəkildə şərh olunub.

Dərs vəsaitinin fərqləndirici cəhətlərindən biri hepatitlər üçün patoqnomonik sayılan klinik simptomların rəngli illüstrasiyalarla təqdim edilməsidir. Bu yanaşma materialın daha asan qavranılmasına və praktiki tətbiqinə imkan yaradır.

Nəşr ali və orta tibb təhsili müəssisələrinin tələbələri, rezidentlər, doktorantlar, eləcə də infeksionist, terapevt, cərrah, qastroenteroloq, virusoloq həkimlər və laboratoriya əməkdaşları üçün nəzərdə tutulub.

Dərs vəsaitinin rəyçiləri V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutunun elmi işlər üzrə direktor müavini, ATU-nun Tibbi mikrobiologiya və immunologiya kafedrasının professoru Akif Qurbanov və ATU-nun Yoluxucu xəstəliklər kafedrasının müdiri, dosent Cəlal İsayevdir.

Qeyd edək ki, nəşr Azərbaycan Tibb Universiteti Elmi Şurasının 25 dekabr 2025-ci il tarixli qərarı ilə dərs vəsaiti kimi təsdiq edilib.

---

**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ**
**AZƏRBAYCAN TİBB UNİVERSİTETİ**

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

**Kafedraların professorları:**
- I Mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- Neyrocərrahlıq kafedrası - 1 yer

**Kafedraların dosentləri:**
- Farmakoqnoziya kafedrası - 1 yer (0,5 vahid)
- Onkologiya kafedrası - 1 yer
- Onkologiya kafedrası - 1 yer (0,5 vahid)
- I Daxili xəstəliklər kafedrası - 2 yer
- III Daxili xəstəliklər kafedrası - 1 yer
- Sitologiya, embriologiya və histologiya kafedrası - 1 yer (0,5 vahid)
- Məhkəmə təbabəti kafedrası - 1 yer
- Oftalmologiya kafedrası - 1 yer (0,5 vahid)
- Bioloji kimya kafedrası - 1 yer
- II Mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların assistentləri:**
- I Cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- II Cərrahi xəstəliklər kafedrası - 1 yer
- II Mamalıq və ginekologiya kafedrası - 1 yer
- II Mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- I Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Ortopedik stomatologiya kafedrası - 2 yer (0,5 vahid)
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası - 1 yer (0,5 vahid)
- Radiologiya kafedrası - 3 yer
- Terapevtik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 1 yer (0,5 vahid)
- Onkologiya kafedrası - 1 yer (0,5 vahid)
- Tibbi və bioloji fizika kafedrası - 2 yer
- Anesteziologiya, reanimatologiya, intensiv terapiya kafedrası - 1 yer (0,5 vahid)
- Yoluxucu xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Yoluxucu xəstəliklər kafedrası - 1 yer
- Uşaq stomatologiyası kafedrası - 1 yer

**Kafedraların baş müəllimləri:**
- Xarici dillər kafedrası - 1 yer (0,75 vahid)
- Normal fiziologiya kafedrası - 2 yer
- İnsan anatomiyası və tibbi terminologiya kafedrası - 1 yer

**Kafedraların müəllimləri:**
- Xarici dillər kafedrası - 1 yer
- Xarici dillər kafedrası - 1 yer (0,75 vahid)
- Tibbi profilaktika kafedrası (HTF) - 1 yer

**Elmi Araşdırmalar Mərkəzi:**
- Molekulyar biologiya və tibbi genetika şöbəsi (şöbə müdiri) - 1 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədək dir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**
**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14**
**Telefon: 597-10-08**

## Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqi.
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır.
4. Tərcümeyi-hal. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər və kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifəyə yenidən seçilmək istəməsi, iştirak etdiyi ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefon nömrəsi göstərilməlidir.
5. ATU-nun klinikalarında çalışanlar üçün son beş il üzrə həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski (əgər bal-reytinq cədvəli üzrə qiymətləndirilmə zamanı təqdim edilməyibsə).
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomları və elmi ad attestatlarının surəti.
10. "Pedaqoji peşəkarlığın inkişafı" mövzusunda təlimlərdə iştirakı barədə sertifikatın surəti.

**Qeyd: ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.**

## Allah rəhmət eləsin!

"Təbib" qəzetinin və Uşaq cərrahlığı kafedrasının əməkdaşları kafedranın assistenti Namiq Xəlilova dayısı qızı **Nigar Xamis qızı Həsənovanın** vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Xarici dillər kafedrasının əməkdaşları kafedranın baş müəllimi Arzu Əmiraslanovaya anası **Müşkünaz xanımın** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Farmakologiya kafedrasının əməkdaşları kafedranın dosenti Aydın Əliyevə qudası **Elmira xanımın** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tibbi və bioloji fizika kafedrasının əməkdaşları kafedranın müdiri, dosent İsmayıl Qafarova qayınatası **Rafiq Rəsulzadənin** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İctimai fənlər kafedrasının əməkdaşları kafedranın müəllimi Bəsdi Qasımovaya qayınatası **Qəzənfər müəllimin** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

"Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun "Təbib" nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0007
Sayı 800